Azadlıq Radiosu

View the original article

DÜNYA XƏBƏRLƏRİ

# Rusiyanın Ukraynaya zərbələrindən 8 nəfər həlak olub

Sentyabr 24, 2026




Kiyevə ballistik raketlərlə zərbə endirilib. 24 sentyabr

Sentyabrın 24-də səhər Rusiya qüvvələrinin Ukraynanın şimalındakı Xarkov vilayətində bir kənddə fermaya zərbəsi nəticəsində altı nəfər həlak olub. Vilayət qubernatoru **Oleq Sinequbov**un Telegram-da yazdığına görə, səkkiz ferma işçisi yaralanıb.

Ötən gecə Rusiya ordusu Kiyev və Odessa vilayətlərinə ballistik raketlər və pilotsuz uçuş aparatları (PUA) ilə növbəti genişmiqyaslı hücum həyata keçirib. Kiyevdə iki nəfər həlak olub, azı səkkiz nəfər xəsarət alıb. Odessa vilayətində isə fərdi yaşayış evinə zərbə nəticəsində iki nəfər yaralanıb. Rusiyanın daha əvvəl də hədəf aldığı ticarət mərkəzində güclü yanğın baş verib.

Channel with username
@{share_link.link} not found

**Rusiya Müdafiə Nazirliyi** Kiyevdə dron hissələri istehsal edən müəssisəni, "Pegasus Arms" dron istehsalı sexini, "Element UA" müəssisəsini, nəqliyyat-logistika mərkəzini, həmçinin "Kiyevstar" və "Parkovıy" telekommunikasiya mərkəzlərini vurduğunu bəyan edib. Nazirliyin məlumatına görə, Odessa vilayətində iki logistika mərkəzi və Çernomorsk limanına doğru hərəkət edən tanker də hədəf alınıb.

Ukraynanın Rusiyanın Rostov vilayətinə hücumundan sonra neft bazasının inzibati binalarına ziyan dəyib. Vilayət rəhbəri **Yuri Slyusar**ın dediyinə görə, dronun qalıqları binaların üzərinə düşüb. Xəsarət alan olmayıb, ərazidə yanğın qeydə alınmayıb.

Rusiya Müdafiə Nazirliyi ölkənin müxtəlif bölgələrində Ukraynaya məxsus ümumilikdə 40 dronun vurulduğunu aşıqlayıb.

Rostov vilayəti mütəmadi olaraq dron hücumlarına məruz qalır. Ötən həftə Ukrayna vilayətə genişmiqyaslı hücum təşkil edib. Ukrayna prezidenti **Volodimir Zelenski** bildirib ki, sentyabrın 17-nə keçən gecə "Rostov-na-Don – Mərkəzi" hərbi aerodromunda bir "An-12", iki "An-26" təyyarəsi və üç helikopter vurulub.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur